İPƏK YOLU, No.2, 2020, səh.152-159

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN NƏSRİNDƏ QƏHRƏMANLARIN DİALOQLARINDA PSİXOLOJİ KİMLİK

**Suğra Ələkbərli**

Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: suqra.alakbarli@mail.ru

**Xülasə.** Məqalədə müstəqillik dövrü nəsr əsərlərində qəhrəmanların dialoqlar vasitəsi ilə ortaya çıxan daxili aləmi, duyğu və düşüncələri təhlil edilir. Xarakterin psixologiyasının müəyyənləşməsində istifadə olunan məqamlara diqqət yetirmək və insanın mənəvi durumunda yaranan problemlər məqalənin əsas mövzusudur. Məqalədə müharibənin, müharibədən sonra yaranan vəziyyətin, yalanın və ya intiqam hissinin insan psixologiyasına təsiri və insanın psixoloji vəziyyətinin alt-üst olmasının səbəbləri üzə çıxarılmışdır.

**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, nəsr, psixologizm, dialoq, psixoloji təhlil.

**PSYCHOLOGICAL IDENTITY IN THE DIALOGUES OF HEROES IN THE AZERBAIJANI PROSE DURING INDEPENDENCE**

**Sughra Alakbarli**
*Azerbaijan University of Languages, Baku, Azerbaijan*

**Abstract.** The article analyzes the inner worlds, emotions and thoughts of heroes through dialogues in the period of independence. The main topic of the article is to pay attention to the points used in defining the psychology of the character and the problems that arise in the moral state of the person. The article explores the impact of war, post-war conditions, lying or revenge on human psychology and the causes of the psychological upheaval.
**Keywords:** Azerbaijani literature, prose, psychologizm, dialogue, psychological analysis.

**ПСИХОЛОГИЧЕСКАЯ ИДЕНТИЧНОСТЬ В ДИАЛОГАХ ГЕРОЕЙ В АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ**

**Сугра Алекперли**
*Азербайджанский Университет Языков, Баку, Азербайджан*

**Резюме.** В статье анализируются внутренние миры, эмоции и мысли героев через диалоги в период независимости. Основная тема статьи - обратить внимание на моменты, используемые при определении психологии персонажа, и проблемы, возникающие в моральном состоянии человека. В статье исследуется влияние войны, послевоенных условий, лжи или мести на психологию человека и причины психологического переворота.
**Ключевые слова:** Азербайджанская литература, проза, психология, диалог, психологический анализ.

## 1. Giriş

"İnsanın daxili aləmini etinasız, neytral bir təhlil obyektinə çevirməklə onu ələ almaq, görmək və dərk etmək olmaz, onu onunla birləşmək, onu daxildən hiss etmək yolu ilə də ələ almaq olmaz. Xeyr, yalnız onunla ünsiyyət yolu ilə, dialoji qaydada ona yaxınlaşmaq və onu açmaq, daha dəqiq şəkildə desək, onun özünü açılmağa məcbur etmək olar. "İnsanda insan",

istər başqaları üçün, istərsə də onun özü üçün yalnız ünsiyyətdə, insanın insanla qarşılıqlı əlaqəsində açılır" [5, s. 322].

Dostoyevskinin əsərlərində dialoqlar məsələsini araşdırarkən ifadə etdiyi bu sözləri M. Baxtin sonradan belə bir nəzəri teoremə dönüşdürür: "Tamamilə aydındır ki, Dostoyevski bədii dünyasının mərkəzində, özü də bir vasitə kimi deyil, bir məqsəd kimi, dialoq durur. Dostoyevskidə hər şey vasitədir, dialoq isə məqsəddir" [5, s. 322].

Biz də ikimininci illər Azərbaycan nəsrində vasitə deyil, məhz məqsəd funksiyasını yerinə yetirən və məhz bu niyyətlə mətnə daxil edilən dialoqları araşdıracağıq. Dialoqların xarakterin psixoloji kimliyinin açarı olduğu məqamlara diqqət yetirəcəyik.

*"Gördü cır alça yemiş adamlar kimi üz-gözlərini turşudub maraqla hadisənin sonunu gözləyən bu cavanlardan kömək ummağa dəyməz, özünü ələ almağa çalışdı:*

*- Ay qardaşlar, mənə elə baxırsınız, elə bil erməniyəm.*

*Drakon:*

*- Sən ermənidən də pissən, dəyyus oğlu dəyyus!*

*At Belində Olan Adam içində nə qədər qorxu olsa da bir belə adamın arasında mənliyinə sığışdırıb söyüşü yeyə bilmədi:*

*- Əlindəki avtomata görə yekə-yekə danışma. Drakon avtomatı atdı uşaqların birinə və ona yaxınlaşıb necə vurdusa, At Belində Olan Adam aşdı və başladı yerdə qıvrılmağa. Drakon qayıdıb avtomatını götürdü:*

*- Qalx ayağa!*

*Gördülər qalxa bilmir, qolundan tutub qaldırdılar. Cavanlığında o da qabağından yeyən olmamışdı, heç indi də pis deyildi. Bəlkə də təkbətək savaşda bu cavanların çoxuna can verməzdi, elə Drakonun özünə də. Amma indi müharibənin adamyeyənə çevirdiyi bu cavanlara cavab verməyə qurd ürəyi lazımıydı, o qurd ürəyi də onda yoxuydu. Üst-başının tozunu çırpa-çırpa yavaşca dedi:*

*- Qalsın qulluğunda!*

*Drakon avtomatı dirədi onun otuziki güllədən ötrü ölən qarnına:*

*- Çıxart şalvarını!*

*At Belində Olan Adamı elə bil ildırım vurdu, səksəndi:*

*- Nə deyirsən?*

*- Deyirəm, çıxart şalvarını!*

*- Yekə kişisən, ə! Lap ağ elədin ki!*

*- Çıxart şalvarını, dedim! Ya burdan tumanpaça gedəcəksən, ya da səni şadaraya çevirəcəm"* [1, s.5-6].

Bu nümunə Aqil Abbasın "Dolu" romanından bir parçadır. Əsərin əsas qəhrəmanlarından biri olan Drakonun psixoloji kimliyini ünsiyyət zamanı təyin edən və onun psixoloji portreti haqqında oxucuya ilk və demək olar ki dolğun məlumat verən bir dialoqdur. Müəllif Drakonu müharibənin "adamyeyən"ə çevirdiyi cavanlardan biri kimi oxucuya təqdim edir. Yuxarıda əsərdən təqdim etdiyimiz dialoq da bunu bütün çılpaqlığı ilə ortaya qoyur. Biz

görürük ki, əslində müəllif bu məqamda baş verən hadisəni "müəllif rəvayəti" ədəbi priyomundan da yararlanaraq nəql edə bilərdi. Amma burada dialoq daha effektivdir və M.Baxtinin də qeyd etdiyi kimi, o, vasitədən daha çox məqsəddir. Bu dialoqdan sonra biz artıq Drakonu tanıyırıq və əsərin sonunadək biz onu məhz burada şahid olduğumuz ampulada görürük. Demək müəllif məqsədli şəkildə bu dialoqu mətnə daxil edərək onunla xarakteri daha canlı formada oxucuya təqdim edir. Əgər burada biz qəhrəman haqqında bir rəvayət oxusaydıq ona inanmaya da bilərdik. Amma dialoq sanki, bizi obrazın iştirak etdiyi bir məqamın şahidinə çevirir və biz onun iştirakı ilə baş verən hadisəni nəinki eşidir, hətta görürük.

"Susmaq", "danışmaq" və ya "danışdırmaq" da psixologizmin üsullarıdır. Belə ki, personajın davranışlarını əhatəli şəkildə təhlil edən müəllif bəzən onun sarsıntı və ya təbəddülatları haqqında fikir bildirmir, onun özünü kimləsə danışdırır. Bu da o deməkdir ki, yazıçı bəzən oxucunu dialoqlara baxaraq psixoloji analiz etməyə məcbur edir. İndi "Dolu" əsərindən gətircəyimiz başqa bir nümunəyə diqqət yetirək. Burada baş verən dialoqda əsərin baş qəhrəmanı olan Komandirin psixoloji portreti onun jurnalistlə olan dialoqunda daha da aydın olur:

"- Yoldaş Komandir! Sıravi əsgər Qeyrət Dağarcığı sizin əmrinizlə gəlib!

- Yaxın gəl! Bilirsən bunun neçə yaşı var? On beş. Səngərdən çıxara bilmirəm.On dəfə qovmuşam, gedib görmüşəm səngərdədi.Day indi qovmuram.Gedə bilərsən.

- Oldu!- deyə Qeyrət Dağarcığı yenə əsgər salamı verib çevrilib getdi.

- Bundan yazın dana! Yoxsa, axtarıb beş-altı bağlı qapı tapıb çəkirsiniz, sonra da qəhbəşivən salırsınız ki, camaat qaçıb.Nə demək istəyirsiniz?Ermənilərə nakolka verirsiniz ki, şəhər boşdu, qorxmayın?!

- Mən o xanımın çəkdiyinə cavabdeh deyiləm.

Komandir soyumuş çayını götürüb atdı yerə, yeni bir çay süzdü, bir qurtum içdi, sonra sözünə davam elədi:

- Get də! Get o həkimi tap, o binamusdan yaz. Yaz ki, biri canını ver, biri də canını verən oğulun anasından pul istəyir.Yox, bunları yazmassan.Bilirsən gedib nə yazacaqsan?!Oğullar qalacaq qıraqda, bayaq gördüklərini yazacaqsan.Yazacaqsan ki, cəbhəçilər quldurluq edir, vəzifəliləri soyur, bir-birini qırır, çünki sənin hökumətin bunu istəyir. Jurnalist başını buladı:

- Komandir, mən hökumət jurnalisti deyiləm. Hökumət jurnalisti olsaydım, hökumətin yanına gedərdim, bura gəlməzdim.

- Götür çayını iç. İncimə, həqiqət budu. Oturmusunuz Bakıda, burdan xəbəriniz yoxdu. İnsanlar dəli kimidilər, hər sözdən havalanırlar.Qəzetdəki adi bir yalan adama erməni gülləsindən pis dəyir. Dünən o verilişdən sonra bütün şəhər bir-birinə dəymişdi.Mən olmasam uşaqlar gedib onu studiyanın qabağında sürüyəcəkdilər. Qaldı müsahibəyə... Bilirsən dostum, müharibədə üç cürə adam var. Döyüşənlər, tank belində şəkil çəkdirənlər, bir də müsahibə verənlər. Bu boyda rayonda iki tank var, birini camaat pul yığıb alıb, Qarağacıda

qəbristanlığında ermənilərin qabağın kəsib. O birini də Mütəllibov göndərib özününkülərə, guya biz nemesik. Ağ Evin qabağındadı, ordakıları qoruyur. Şəkil çəkdirənlər üçündü, istəyirsən get birini də sən çəkdir. Bizim batalyondakılar döyüşənlərdi, şəkil yerini də göstərdim.Müsahibə verənlər də Ağ Evdədilər, bilyard oynayırlar.Gecə düşən kimi də qaçırlar Bərdəyə, hələ biri qrad səsi eşitməyib.Elələri var heç Bərdədən bu tərəfə keçmir, sürücüləri gəlib ezamiyyət vərəqlərini möhürləyib gedir" [1, s. 12].

Biz burada müharibə mövzusunda yazılan əsərlərdəki komandir, sərkərdə, ordu başçısı obrazını deyil, öz doğma torpağının uğrunda mübarizəyə atılan və bu yolda öz əsgərini övladı kimi sevən, vətən torpağının bir parçası üçün canını əsirgəməyən, rəhbərlik etdiyi ordunun önündə gedən böyük cəsarət sahibindən başqa, həm də kövrək qəlb, əsən ürək və düşdüyü vəziyyətdən çıxmaq üçün təkcə ağır hərbi vəziyyətdən deyil, həm də düşdüyü təbəddülatlı düşüncələrin cəngindən qurtulmaq üçün çıxış yolunu arayan şəxsi görürük.

Müstəqillik dövrü Azərbaycan romanını tədqiq edən Əhməd Sami Elaydi öz tədqiqatında qeyd edir ki, "tənqidçi-ədəbiyyatşünas Muxtar İmanovun öz elmi işində ortaya qoyduğu nəzəri mülahizələr bütövlükdə, müstəqillik dövrü Azərbaycan nəsrində də özünəməxsus şəkildə bədii təcəssümünü tapmışdır. Müstəqillik dövrü Azərbaycan romanları həmçinin dialoqdan özünəməxsus şəkildə istifadənin maraqlı, özünəməxsus nümunələri kimi diqqəti çəkir. Ümumiyyətlə, ayrı-ayrı romanlarda dialoqa təhkiyə ilə bağlı şəkildə müraciət olunması özünü büruzə verməkdədir. Dialoqa daha çox müraciət edən müəlliflərdən biri Seyran Səxavət «Nekroloq» romanında ondan həm məzmun, həm də forma amili kimi bəhrələnmişdir. Dialoqdan məzmun amili kimi bəhrələnilməsi daha çox təsvir olunan hadisə və əhvalatların məna və mahiyyətinin açılmasına, obraz və xarakter yaradılışına, forma amili kimi istifadə olunması isə romanın oxunaqlığının təmin edilməsinə, müəllif təhkiyəsinin yeknəsəqliyinin aradan qaldırılmasına xidmət edir. Bir sıra hallarda isə romanda sosial-siyasi problemlər dialoq formasında gerçəkləşir, bu isə bədii mündəricənin daha anlaşıqlı şəkildə oxucuya çatdırılması məramına söykənir" [4, s.162].

Bu nəzəri müddəalara əsaslanaraq indi Kamal Abdullanın araşdırdığımız dövr üçün müstəsna nəsr nümunəsi sayılan, uzunmüddətli müzakirə predmeti olan və haqqında çoxlu elmi, publisitik məqalələr yazılan "Yarımçıq əlyazma" romanında bir dialoqa diqqət yetirək. Bu dialoq əslində əsərin elə bir nöqtəsindədir ki, bu nöqtəyə qədər bütün oğuzların rəhbəri olan Bayındır Xan Dış Oğuzun bəylərindən olan Aruzla danışır və dialoqun sonunda Bayındır Xan özü də Dış Oğuzdan üz çevirir. Bilirik ki, "Yarımçıq əlyazma" romanının bir hissəsi məhz "Kitabi-Dədə Qorqud" dastanının motivləri və obrazları əsasında yazılmışdır. Romanın bu hissəsində qoyulan probelm ondan ibarətdir ki, Oğuz cəmiyyətində bir casusun olması məsələsi Beyrək tərəfindən ortaya atılıb və İç Oğuza bəlli məqamlarda olan kafir hücumlarının əsas səbəbkarının casusun verdiyi informasiya olduğu qənaətinə gəlinib. Oğuz bəylərinin və rəhbər şəxslərin də əsas şübhələndikləri şəxs Boğazca Fatmanın bircəcik oğlu Yalançı oğlu Yalıncıqdır. Casusun həbsinə qərar verildikdən və o tutulub zindana atıldıqdan sonra anası Boğazca qarı nə yolla olursa olsun oğlunu zindandan xilas etməyi düşünür. Bunun

üçün bir oyuna başlayır və bu oyunu Dədə Qorqudun gizli məsləhəti ilə daha peşəkar şəkildə oynamağa başlayır. Fatma qarı bir-bir Oğuz bəyləri ilə görüşərək onları bircəcik oğlunun atası olmasına inandırır və oğlunun xilası üçün onlara yalvarır. Boğazca Fatma Dış Oğuz bəyi Aruz Qoca ilə də görüşür və bu görüşdən sonra Xanlar Xanı Bayındır Xan Aruz Qocanı yanına çağırır. Aşağıdakı dialoq bu məqamda baş verir:
" - Aruz, sən Qazanın yanında məşvərətdən öncə Boğazca Fatma derlər bir qadınla görüşdün, o sənə nə dedi, sən ona nə dedin, söylərmisən?

Aruz şaşırdı. Sonra başını aşağı dikdi, yavaşdan dedi:

- Bayındır Xan. O mənimlə bir qadın arasındakı danışıqdır, mətləbə dəxli yoxdur.
- Demək söyləmirsən?
- Söyləmirəm, Xan.
- İstərsən, mən söyləyim?! – Bayındır xan səsini ucaltdı.
- Sən səni bilirsən. – Aruz səsini yavaşıdıb dedi" [3, s.249].

Dialoqun bu hissəsində istər Bayındır Xanın, istərsə də Aruz Qocanın amiranə təbiətini görür, onların rəftarında şəxsiyyətlərinin psixoloji baxımdan yetkinliyinə şahid oluruq. Lakin, Bayındır Xan istədiyini almayınca özü Aruz Qoca ilə Boğazca Fatma arasında olan söhbəti ona xatırlatmalı olur:

" - Boğazca sənə vardı, yalvardı, sısqadı, tək balama qıyma dedi, yetimdir, atalı yetimdir mənim oğlancığım, dedi. Mənə nə? – sən dedin. – Oğlancığının günahı var, deməli cəzası da vardır. Sonra Bogazca diz çökdü, sənin ayaqlarını qucaqladı, zar-zar ağladı, "bilirmisən, Aruz, - dedi, - bu oğlancıq sənin oğlancığındır, cavanlığımızın əmanətidir. Evimizin ardı dərəcik idi – xatırlarmısan?! İtimizin adı Bəraqcuq idi – unutdunmu?! Bilməm ancaq, Aruz, o it sənə hürərdi, yoxsa hürməzdi?! Giminə hürdü, kiminə isə hürmədi. Sən şaşırıb durdun. "Etmə, eləmə" – dedin. "Qazan səni yağmaya çağırmadı, səni saymaz, səni bəylərin yanında xınc edər, başına qaxınc edər. Qazan sənin oğlancığını həlak etmək dilər. Sən qoyma, igid Aruzum" – Boğazca böylə dedi" [3, s.250].

Bayındır Xan onlar arasında olan söhbəti olduğu kimi Aruz Qocaya danışandan sonra biz elə dialoq əsnasında Aruz Qocanın psixoloji cəhətdən dəyişildiyini hiss etməyə başlayırıq. Bu məqamda o əvvəlki amiranəliyindən uzaqlaşır, öz əsəblərinə hakim ola bilmir, nəticədə şəxsiyyətinin zəif tərəfini ortaya qoyur. Dialoqun nəsr əsərlərində olduqca böyük məna yükü daşıdığına bu nümunə əyani misaldır. Müəllif Kamal Abdulla peşəkarlıqla və M.Baxtinin qeyd etdiyi kimi dialoqu vasitə kimi deyil, məqsəd, prinsip kimi istifadə edərək buna nail olur. Kamal Abdulla mətnində dialoq xarakterin psixoloji paspotruna çevrilir. Dialoqun davamına diqqət edək:

" - Bu sözü sən mənə deməmək gərək idin. Boğazca sənə gəldimi, Xan? – Aruz qoca sordu. – Məni satdımı qarı?

- Qəzəblisən, Aruz. Əgər qəzəblisən, haqlı deyilsən, bəlli bilgil. Oğuzun işləri böylə çözülməz. Casus hər kim idisə cəzasını almalı idi. Oğuza görk olmalı idi. – Bayındır Xan cavab verdi.

Aruz Qoca qəzəbini uddu:

- Həpsi sən deyən kimi oldu. Nə edə bilirdim ki?! Şəfqət damarım qeynədi. Oğlancığımdır dedim. Tanrı Qıyan Səlcuğu aldı, bunu verdi – düşündüm. Mənə çox bəlalar başıma gəldi, Xan. Bir oğlancığım Təkgözün əlində zəbun oldu, o biri sən bilirsən, meşədən çıxmır, gətirirsən yenə ora dönür, bir gözü geridə meşədədir. Bu yana da bu Qazan. Mənim suçum casus qəziyyəsində söylə, varmı? Casus qəziyyəsini kim atdı ortaya?! Beyrək atmadımı?! Beyrək Oğuzun başının üstünü sehirbaz Təkgöz gəlib alanda, uşaqların, qocaların suyunu kəsəndə, qadınlar bıldır-bıldır gözlərindən yaş töküb hər evdən bir oğlancıq, bir qızcıq Təkgözə yemlik verəndə, Xan, səndən soruram, Beyrək harada idi? İstərsən, mən sənə söyləyim. Beyrək özünü Bayburt hasarının bəylərinə oğurlatmışdı, bəlli bilgil. Təkgözlə savaşa getməmək üçün Bayburda əsirliyə getdi. İndi bu Beyrəkdən soran yoxdur, sən bu casus məsələsini kimdən, necə öyrəndin?! Xan, sənin ədalətin böyükdür. Sən nahaqq bir əməl tutmazsan. Sən ki Xanlar Xanı, Qamğan oğlusan. Hələ bu Beyrək kimdir Qazan alıb sinəsinin başında quzu kimi bəsləyir?! Mənim oğlancığın həsədini çəkir ikisi də - Beyrək də, Qazan da, bəlli bilgil” [3, s. 251].

Dialoqun davamında biz hətta dram əsərlərinə xas olan dialoqlar daxilində sanki qəhrəmanın monoloqunu görürük. Aruz Qoca Bayındır Xan qarşısında bir monoloq söyləyərək həm öz daxili dünyası, həm də Oğuz cəmiyyətini gözləyən bəla ilə bağlı Xanı xəbərdar edir. Əslində “Kitabi-Dədə Qorqud” dastanında olduğu kimi “Yarımçıq əlyazma” romanında da müəllif Aruz Qocanın ziddiyyətli şəxsiyyəti haqqında oxucuda tam təsəvvür yaratmaq üçün ən müxtəlif ədəbi-bədii manevrlərdən istifadə edir. Bunların ən effektivinin məhz dialoq olduğunu sübuta yetirməyə ehtiyac yoxdur.

“Kitabi-Dədə Qorqud” dastanında “Altmış erkəc dərisindən kürk eyləsə topuqlarını örtməyən, qolu-budu xırancə: uzun baldırları incə, Qazan bəyin dayısı at ağızlu Aruz Qoca” deyə təsvir edilən bir şəxsiyyət romanda bir qadının məkrli oyunu qarşısında aciz qalaraq onu saran bütün dərdləri, onu içdən yeyən narahatlıqları dilə gətirir. “Hər bir xarakterin qənaətləri və düşüncələri əslində daxili dialoqdur, polemikalarla doludur, mübarizə əzminin göstəricisidir və təsirlərə də açıqdır. Ancaq heç bir halda yalnız öz obyektinə yönəldilmir; bu vəziyyət həmişə kənardan başqa bir şəxsin baxışıyla, düşüncəsiylə birgə müşayiət olunur” [5, s. 81]. M.Baxtinin dediyi bu nəzəri məsələ Aruz Qocanın dialoqa qarışmış monoloquna da aid edilə bilər.Dastanın özündə də, romanda da Aruz Qocanın bir oğlunun Təpəgöz tərəfindən öldürüldüyü, digər oğlu Basatın vaxtilə el köçəndə itdiyi, sonra tapıldığı, lakin cəmiyyətdə yaşaya bilmədiyi, tez-tez meşəyə heyvanların yanına qaçdığı haqqında danışılır. Heç şübhəsiz bu məqamlar Aruz Qocanın mənəvi-psixoloji durumuna çox böyük təsir göstərir. Bir yandan da casus məsələsinin ortaya atılması, bu məsələdə Yalıncığın onun oğlu olmasına Aruzun da inanması, hətta bunu ölən oğlu Qıyan Səlcuğun yerinə ona Tanrı hədiyyəsi hesab etməsi

əslində şəxsiyyətin daxili təbəddülatlarına bir işarədir. Bu məsələlərin müəllif tərəfindən deyil, yaradılan obrazın öz dili ilə kiməsə nəql olunması mətndə psixologizmin ustalıqla işlənməsinin göstəricisidir.

İstər hekayə, istərsə də romanlarında dialoqlardan xarakterin psixologiyasının müəyyənləşməsində məharətlə istifadə edən və yuxarıda qeyd etdiyimiz kimi bunu ədəbi prinsipə çevirən Kamal Abdulla ikimininci illər Azərbaycan ədəbiyyatında vizual psixologizmin nümunələrini də məhz dialoqlarla yarada bilmişdir. Kamal Abdullanın bu 10 illik zaman kəsiyində yaratmış olduğu nümunələrə psixologizmin araşdırılması məqsədilə yanaşıldıqda digər nəsr nümunələrində rastlaşmadığımız bir halla da qarşılaşırıq. Bu hal ondan ibarətdir ki, hətta dialoji mətnlərin ən kamil araşdırmaçısı olan M.Baxtinin belə toxunmadığı məsələ Kamal Abdulla nəsrində özünə yer tapmışdır - xarakterin, insan surətinin irreal obrazla dialoqu. M.Baxtinin məhz Dostoyevskinin əsərləri üzərində eksperimentlərində dialoqların xüsusi bir növündən də bəhs edir ki, buna da Azərbaycan ədəbiyyatında rast gəlmək olduqca çətindir. Bu dini baxışlardan, xristianlığın ənənələrindən irəli gələn "tövbə dialoqu"dur [5, s. 336].

Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanında əsərin qəhrəmanı sirrə vaqif olmaq məqsədilə çağırdığı ruhla dialoqa girir. Bu dialoq "tövbə dialoq"u olmasa da, and, əhd və ya sirrə vaqif olmaq naminə yalvarış dialoqu ola bilər. Çünki intiqam hissiylə alışıb yanan qəhrəman öz niyyətini gerçəkləşdirmək üçün bütün vasitələrə əl atmağa hazırdır. Bu hiss onun bütün psixologiyasını zəbt etmişdir. Bu hissdən qurtulmaq üçün o mütləq öz missiyasını həyata keçirməlidir. Əsərin müxtəlif yerlərində intiqama susayan qəhrəman bəzən öz mənini unudaraq başdan-ayağa intiqamla yoğrulduğunu bəyan edir. Sadəcə törədəcəyi cinayətə haqq qazandırmaq üçün çağırdığı atasının ruhundan onun düşüncəsini didib parçalayan məsələləri öyrənmək istəyir. O hətta ruhla ünsiyyətdə olan zaman da öz məramına sadiqliyini nümayiş etdirir:

"– Sənin də, ağa, heç bir sözün mənim qəlbimdən qardaş eşqini çıxaran deyil, biləsən…

– Necə alacaqsan, ay binəva, intiqamı? – Ruh bunun sözünü kəsib çarəsiz-çarəsiz sual etdi.

– Alacağam. Bilirsən, ağa, mən bunun ən inanılmış adamlarındanam. Biriminci sövdəgəri mənəm. Arvad-uşaqlarının bütün nə ki sifarişi var, mənimlədir… Zəhərləyəcəyəm onu. Yavaş-yavaş ölüb gedəcək. İt əzabıyla öləcək. Heç kəs də ki duyuq düşməyəcək kimdən oldu bu iş. Şah olanda nolar?! Cavab versin qoy babasının əməllərinə. Karvanbaşı susub əlindəki ipək dəsmal ilə boğazının, peysərinin soyuq tərini sildi, dəsmal bir anın içində yam-yaş oldu, atdı dəsmalı bir kənara mütəkkənin dalına:

– İndi nə deyirsən? – Karvanbaşı ümid dolu bir səslə niyyətinə Ruh tərəfindən təqdir gözləyə-gözləyə soruşub durdu. Ruhun səsi bu səfər həddən ziyadə qəmli gəldi. Ürəküzən ney səsi idi bu səs, başqa bir şey deyildi:

– Sən bir körpə, əl boyda uşaq idin. Ananın balaca ağ döşlərini əməndə elə göyçək olurdun ki… Gicinəqulu… Gəl sən etmə bu işi. Karvanbaşı çaşdı, çünki belə bir cavabı ağasından heç gözləmirdi" [2, s. 194-195].

Qəhrəmanın süjet xəttinin inkişafında davamlı olaraq ünsiyyətə girdiyi ruh (atasının ruhu - əslində bunu qəhrəman bilmir, sonadək də bilə bilmir) əsərdə qəhrəmanı müxtəlif yollarla tutmağı planlaşdırdığı işdən çəkindirməyə çalışır. Onu intiqam hissi ilə yaşamamağa səsləyir. Bu hissi qəlbindən tamamilə silib atmağı, əks tədqiqrdə yeni faciələrə gətirib çıxara biləcəyini ona anlatmağa çalışır. Amma bu sonda məhz elə ruhun təhriki ilə qəhrəmanın – Karvanbaşının özünü öldürməsinə gətirib çıxarır.

Kamal Abdullanın yaratdığı Karvanbaşı obrazının həyat çevrəsi öz ölümü ilə qapanmış olur. Qəhrəmanın ona əzab verən intiqam hissi içində qovrularaq özünə qəsd etməsinə gətirib çıxaran yol isə psixi sarsıntılarla, uşaqlığında yaşadığı faciələrin təsirilə assosiasiya olunur.

**Nəticə.** İstər monoloqlar, istərsə dialoqlar olsun ikimininci illər nəsrində xüsusi bir ədəbi manevr kimi işlədilərək obrazların psixoloji keyfiyyətlərinin açılmasında əvəzsiz rol oynayırlar. Bu dövrdə yaradılan əsərlərdəki psixoloji situasiyalar, xarakterlər və bu xarakterlərin dolğunluğuna yardımçı olan obrazlar zəngin bədii dil, bədii təsvir və ifadə vasitələri və digər ədəbi-bədii priyomlarla müəkəmməl şəkildə ifadə olunmuşdur. Bu zaman Azərbaycan ədəbiyyatı üçün yeni olan bədii vasitələrdən də yetərincə çox istifadə olunmuş, bu hətta yeni janrların (yazı tərzləri) yaranmasına da gətirib çıxarmışdır. Lakin M.Baxtinin təbirincə desək biz bilirik ki, yeni yaranan janr heç zaman özündən əvvəl mövcud olan janrların heç birini ləğv və ya əvəz etmir. O yalnız köhnələri hansısa bir müstəvidə tamamlayır və mövcud olan ədəbi-bədii çevrəni daha da genişləndirir. Özünün bütün dərinliyi və özünəməxsusluğu ilə birlikdə ikiminci illər nəsrindəki düşünən insan idrakı və bu idrakın varlığının dialoji sahəsi ona olan birtərəfli yanaşmanın imkanları xaricindədir. Bu məqam ikimininci illər nəsrinə çoxspektrli yanaşma tələb edir.

## Ədəbiyyat

1. Abbas A., (2008), Dolu, Bakı, Təhsil, 254 s.
2. Abdulla K., (2018), Sehrbazlar dərəsi, Bakı, Qanun, 168 s.
3. Abdulla K., (2012), Yarımçıq əlyazma, Bakı, Mütərcim, 292 s.
4. Elaydi Ə.S., (2017), Müstəqillik dövrü Azərbaycan romanı, Bakı, Nurlan, 191 s.
5. Baxtin M., (2005), Dostoyevski poetikasının problemləri, Bakı, 393 s.